# GƏLƏCƏYƏM



Nazlı HACILI

Eşitdim gozlırin yollarda qalıb
Aglama gözünü sil,gələcəyəm.
Fələk aramiza ayriliq salıb
Üzülmə sevdiyim,gül gələcəyəm.

Mənim də qurumaz gözümün yaşı
Ağlima gəlirsən hər addim başi
Sən sevgi bağçamın məhəbbət quşu
Sənsiz darıxmışam,,bil,gələcəyəm.

Sən də unut artiq bu ahu-zarı
Ey könlüm evinin yazi,bahari
Sənsən ürəyiimin gözəl dildarı
Axmasin gözündən sel,gələcəyəm.

Sanma ki verərəm səni yad elə,
Gəl sən də Rəbbimdən bir vüsal dilə
Sənsiz cəkilərmi bu qədər cilə?
Əssə də firtina yel gələcəyəm.

Ayrılıq kəlməsin düşünmə bir an,
Düzdür ayrı qaldıq bu qədər zaman
Kəssə də yolları boran,çən,duman
Əlimdə bir dəstə gül gələcəyəm.

**Azad Azərbaycan.- 2023- cü il.- 26 yanvar.- S. 8.**